# Parlamentdə Gənclər Fondunun 2024-cü ildə fəaliyyətinə dair təqdimat keçirilib

Yanvarın 30-da Milli Məclisin Gənclər və idman komitəsinin növbəti iclası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda Azərbaycan Respublikasının Gənclər Fondunun 2024-cü ildə fəaliyyəti haqqında təqdimatı keçirilib. Komitənin sədri Şahin İsmayılov iclası açaraq Milli Məclisin Sədri Sahibə Qafarovaya tədbirin keçirilməsində göstərdiyi dəstəyə görə təşəkkürünü ifadə edib.

İclasın 2 Fevral Gənclər Günü ərəfəsində keçirildiyini deyən Şahin İsmayılov rəhbərlik etdiyi komitənin gənclər təşkilatları ilə səmərəli əməkdaşlıq etdiyini söyləyib. O, məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1996-ci il fevralın 2-də Azərbaycan Gənclərinin Birinci Forumunun keçirildiyini, Ümummilli Liderin müvafiq sərəncamı ilə Azərbaycanda Gənclər Gününün təsis edildiyini vurğulayıb.

Komitə sədri Azərbaycan Respublikasında gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"nın qəbul edildiyini, Gənclər Fondunun bu istiqamətdə səmərəli fəaliyyət göstərdiyini qeyd edib. O, gənclər siyasətinin daim dövlətimizin prioritetləri sırasında olduğunu, ölkəmizdə bu sahənin inkişafı ilə bağlı mühüm addımların atıldığını deyib. Azərbaycan Prezidentinin gənclərin ictimai-siyasi həyatda aktiv iştirakı ilə bağlı söylədiyi fikirlərə diqqət çəkərək, onların bu tövsiyələrdən yararlanaraq fəaliyyət göstərdiklərini bildirib.

Komitə sədri ölkəmizdə gənclər təşkilatlarının uğurlu fəaliyyəti üçün yaxşı maddi-texniki bazanın mövcud olduğunu söyləyib. O, Azərbaycanda gənclər siyasətinin formalaşmasında Gənclər və İdman Nazirliyinin, Prezident Administrasiyasında müvafiq şöbənin, Milli Məclisdə aidiyyəti komitənin, 300-dən çox gənclər təşkilatlarının önəmli rolunu vurğulayıb.

Sonra Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktor vəzifəsini icra edən Qədir Xəlilovun Fondun 2024-cü il ərzində fəaliyyətinə dair təqdimatı dinlənilib. Diqqətə çatdırılıb ki, Gənclər Fondu ötən müddət ərzində gənclərin inkişafına xidmət edən və ictimai həyatda onların fəallığını artıran layihələrə dəstək göstərib, gənclərə öz təşəbbüsləri ilə çıxış etmək, fərdi layihələri həyata keçirmək imkanı yaradıb.

Qədir Xəlilov "Yaşıl Dünya Naminə Həmrəylik İli"nə həsr edilmiş gənclər təşkilatları üçün qrant müsabiqəsi çərçivəsində reallaşdırılan layihələrin ölkə gəncliyinin ekoloji maarifləndirilməsi və ətraf mühitin mühafizəsi sahəsində görülən işlərə effektiv təsirindən bəhs edib.

Ötən müddət ərzində həyata keçirilən Səyyar Gənclər Xidməti, Yay Fest, İntellektual Klubların Gənclər Liqası, Azərbaycan Könüllülük Həftəsi kimi irimiqyaslı layihələrin gənclərin şəbəkələşməsi, bilik və bacarıqlarının inkişaf etdirilməsi və dövlət gənclər siyasətinin gənclər üçün yaratdığı imkan və xidmətlərin əlçatanlığının təmin edilməsi istiqamətində Fondun gördüyü işlərdən söhbət açılıb. Qeyd edilib ki, gənclərin fəaliyyət və təşəbbüsləri dövlət tərəfindən daim dəstəklənir, ölkəmizdə həyata keçirilən gənclər siyasəti gənc nəslin hərtərəfli inkişafına, o cümlədən onların təhsil səviyyəsinin yüksəldilməsinə, dünyagörüşünün, fiziki və mənəvi sağlamlığının qorunmasına xidmət edir. Yaradılan imkanlardan bəhrələnən gənclərimiz bu gün öz bilik və bacarıqlarını siyasi, sosial-ictimai, idman, mədəniyyət və digər sahələrdə fəal surətdə nümayiş etdirirlər.

Qədir Xəlilov Azərbaycan Gənclər Fondunun beynəlxalq fəaliyyəti barədə də məlumat verib. Həmçinin, Gənclər Fondu və gənclər təşkilatlarının fəaliyyətinin səmərəliliyinin artırılmasında Milli Məclisin Gənclər və idman komitəsinin rolundan, birgə əməkdaşlığın əhəmiyyətindən söhbət açıb.

Müzakirələr zamanı parlamentin Gənclər və idman komitəsinin üzvləri, digər komitələrdən dəvət edilmiş deputatlar Azər Allahverənov, Vüqar İskəndərov, Naqif Həmzəyev, Göydəniz Qəhrəmanov, Pərvanə Vəliyeva, Məzahir Əfəndiyev, Ülvi Quliyev, Asif Əsgərov, Eyvaz Qurbanov, habelə iclasda iştirak edən Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri, Gənclər Fondunun Müşahidə Şurasının üzvü Rəşad Zeynalov, "Dünya Gənc Türk Yazarlar" İctimai Birliyinin sədri İntiqam Cavanşir, "Gənclər Mərkəzi" İctimai Birliyinin sədri Kənan Qubadzadə, Gənc Vətənpərvərlər İctimai Birliyinin sədri Müqamət Əliyev çıxış edərək təqdimatı müsbət dəyərləndiriblər, ötən il ərzində həyata keçirilən layihələr, əldə olunan uğurlar, qarşıya qoyulan hədəflər və cari ilin fəaliyyət istiqamətləri haqqında öz fikirlərini bölüşüblər.

Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Qədir Xəlilov çıxışlarda səslənən fikirlərə münasibət bildirib.

İclasa yekun vuran parlamentin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov müzakirələrin səmərəli keçdiyini söyləyib və iştirakçılara təşəkkürünü bildirib.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 31 yanvar (№ 21).- S.3.